**“XXXXX” MMC və “Smartbee” MMC arasında**

**XİDMƏT MÜQAVİLƏSİ**

Tarix: [xx.xx.2025]
№ [XDM/0176/2025]

Bu Xidmətlərin Göstərilməsi haqqında Müqavilə (“Müqavilə”) Azərbaycan Respublikası qanunlarına uyğun olaraq təsis edilmiş, XXXXXXXX saylı dövlət qeydiyyat nömrəsinə (VÖEN) malik, qeydə alınmış ünvanı AZ1141 Baku, Yasamal Rayonu, Abbas Səhhət küçəsi, ev 114 olan və direktor Tural Kərimov tərəfindən təmsil edilən “XXXX” MMC (“Sifarişçi") və
Azərbaycan Respublikası qanunlarına uyğun olaraq qeydiyyatdan keçmiş, 1702851971 saylı dövlət qeydiyyat nömrəsinə (VÖEN) malik, qeydə alınmış ünvanı AZ1073 Bakı şəhəri Səbail rayonu Ələsgər Ələkbərov ev 12 mənzil 3 olan və Direktor Kərimov Fərid tərəfindən təmsil edilən “Smartbee” MMC (“İcraçı”) arasında bağlanmışdır.
“Sifarişçi” və “İcraçı” bundan sonra birlikdə “Tərəflər”, ayrılıqda isə “Tərəf” adlandırılırlar.
Bu Müqaviləyə edilən bütün Əlavələr və ya Texniki Tapşırıqlar və ya Qoşmalar və ya Qiymət-Razılaşma Protokolları, bu Müqavilənin ayrılmaz tərkib hissəsi hesab olunur.

## 1. MÜQAVİLƏNİN PREDMETİ

1.1. “İcraçı” bu Müqavilənin tərkib hissəsi olan bu Qoşmalarda əks olunacaq xidmətləri (“Sifariş”) hazırkı Müqavilənin və Sifarişin şərtlərinə uyğun olaraq “Sifarişçi”yə təqdim etməyi, “Sifarişçi” isə bunun müqabilində xidmətləri qəbul etməyi və həmin Xidmətlərin dəyərini “İcraçı”ya ödəməyi öhdəsinə götürür.

1.2. Burada müəyyən edilmiş müddəalara və şərtlərə uyğun olaraq, “İcraçı” aşağıdakı xidmətləri “Sifarişçi”yə təqdim etməyi üzərinə götürür:

a) Reklam yerləşdirilməsi
b) Reklamın mediaplanlaşdırılması, nəticələrinin hesabatı
c) Reklamın materiallarının yerləşdirilməsi üçün Sifarişçinin özəl müvafiq şəxsi hesabının Smartbee platformasında yaradılması
d) Reklam kreativlərinin yaradılması, onların modifikasiyası və texniki tərtibat işlərinin görülməsi
e) Mərkəzləşdirilmiş və avtomatlaşdırılmış reklam yerləşdirilməsi
f) Ödənişli konsultasiya xidmətlərinin göstərilməsi
g) Reklam platformasının birbaşa təklif etdiyi reklam inventarından əlavə olaraq, 3-cü tərəf təchizatçıların verdiyi marketinq alətlərinin tətbiqi

## 2. HESABLAŞMA VƏ İŞLƏRİN TƏHVİL-TƏSLİM QAYDALARI

2.1. Bu Müqavilə üzrə xidmətlərin dəyəri Sifarişin qeyd olunduğu, bu Müqavilənin ayrılmaz parçası olan Texniki Tapşırıqların və ya Qoşmaların və ya Qiymət-Razılaşma Protokollarının əsasında həyata keçirilir.
2.2. Tərəflər arasında digər şəkildə razılaşdırılmayıbsa, bütün ödənişlər İcraçının Müqavilədə göstərilmiş bank hesabına köçürmə yolu ilə həyata keçiriləcəkdir.
2.3. Ödəniş tarixi pul vəsaitinin “İcraçı”nın hesabına köçürülüməsi tarixi hesab edilir.
2.4. “İcraçı” xidmətləri öz avadanlıqları və işçi qüvvəsi ilə icra edir və xidmətlərin göstərilmə metodikasını özü müstəqil olaraq müəyyən edir.
2.5. “Sifarişçi”nin reklam platformasında xərclədiyi vəsaitlər onun sistemdəki balansını əks etdirən cüzdanından çıxılır.
2.6. Ödənilmiş vəsaitə müvafiq olan xidmətlər “İcraçı” tərəfindən tam və yə lazımınca yerinə yetirilmədikdə “İcraçı” həmin vəsaiti “Sifarişçi”nin tələbi əsasında ona geri qaytarmalıdır.
2.7. “İcraçı” tərəfindən xidmətlər tam yerinə yetirilmədikdə, “Sifarişçi” tərəf yalnız icra edilmiş xidmətlərin dəyərini ödəmək hüququna malikdir.
2.8. “Sifarişçi” tərəf xidmətin göstərilməsi zamanı saxtakarlıq etməyəcəyinə, reklam materiallarının yerləşdirilməsi zamanı gəliri artırmaq və ya xərcləri azaltmaq üçün əvvəldən razılaşdırılmamış süni müdaxilələr etməyəcəyinə zamanət verir.

2.9.“İcraçı” tərəf bu müqavilənin 2.8 bəndindəki hər hansı qaydanı pozarsa, “Sifarişçi” onun reklam hesabını bloklamaq, xidmətin göstərildiyi rəqəmsal mediaya (veb-sayt, bloq, kanal və s.) sanksiya qoymaq, “Sifarişçi”nin balansındakı vəsaitin qismən və ya tam hissəsini bloklamaq hüququnu özündə saxlayır.

2.10. “İcraçı” auksion əsaslarla yerləşdirilən reklam xidmətlərin dəyərini birtərəfli qaydada dəyişə bilər.

2.11. “İcraçı” qeyri-auksion əsaslarla yerləşdirilən reklam xidmətlərinin dəyərini birtərəfli qaydada yalnız “Sifarişçi”yə xəbərdarlıq etməklə dəyişə bilər.

2.12. “İcraçı” Sifariş üzrə xidmətləri “Sifarişçi”yə bu Müqavilə Qoşma kimi tərtib edilən təhvil-qəbul aktı vasitəsilə təhvil verir.

2.13. “Sifarişçi” təhvil-qəbul aktını əldə etdiyi gündən sonrakı 5 (beş) iş günü ərzində ya təhvil-qəbul aktını imzalayaraq bir nüsxəsini “İcraçı”ya təqdim edir, ya da xidmətlərdə hər hansı qüsur aşkar etdiyi təqdirdə, “İcraçı”ya əsaslandırılmış imtina məktubu göndərir.

2.14. “İcraçı”nın əsaslandırılmış imtinanı əldə etdiyi tarixdən sonrakı 3 (üç) iş günündən gec olmayaraq Tərəflər özündə bütün qüsurların siyahısını və onların aradan qaldırılması üçün son tarixləri əks etdirən ikitərəfli akt imzalayırlar. “İcraçı” həmin aktda qeyd edilən bütün qüsurları aradan qaldırdıqdan sonra “İcraçı” bu Müqavilənin 2.12-ci yarımbəndində nəzərdə tutulan qaydada xidmətləri yenidən “Sifarişçi”yə təhvil verir.

2.15. Bu Müqavilənin 2.13-cü yarımbəndində nəzərdə tutulan müddət başa çatdıqdan sonra xidmətləri qəbul etməkdən əsaslandırılmış imtina olmadığı təqdirdə, müddətin başa çatdığı gündən sonrakı gün xidmətlər “Sifarişçi” tərəfindən şərhsiz qəbul edilmiş və Tərəflər arasında təhvil-qəbul aktı imzalanmış hesab edilir.

## 3. TƏRƏFLƏRİN TÖHDƏLİKLƏRİ VƏ CAVABDEHLİYİ

**3.1.“Sifarişçi”-nin öhdəlikləri:**

**3.1.1.** “Sifarişçi” “İcraçı” tərəfindən yerinə yetirilmiş işləri bu müqavilə üzrə müəyyən edilmiş qaydada və müddətdə qəbul edib dəyərini ödəmək öhdəliyini daşıyır.

**3.1.2.** “İcraçı” tərəfindən müqavilənin icrası 10 (on) təqvim günündən artıq müddətə gecikdirilərsə,“Sifarişçi” müqavilədən imtina edir və dəyən zərənin ödənilməsini tələb edir.

**3.1.3.** “İcraçıya“ bütün lazımi məlumatların verilməsi, onun fəaliyyət göstərməsi üçün müvafiq şəraitin yaradılmasını təmin edir.

**3.1.4.** “Sifarişçi” “İcraçı”nın tələbi ilə Azərbaycan Respublikasının mövcud qanunvericiliyində nəzərdə tutulmuş hallarda reklam məhsullarının müvafiq sertifikat, şəhadətnamə, lisenziyalarını və habelə reklamın həqiqiliyini təsdiq edən sənədləri və ya bunların lazımi qaydada təsdiq edilmiş surətlərni təqdim etməyə borcludur.

**3.1.5.** “Sifarişçi” qəbul edir ki, onun saxtakarlıq, spam, zərərli proqram, reklam xidmətlərindən istifadə ilə bağlı saxtakarlıq və ya Müqavilənin müddəalarını pozan hər hansı digər hərəkətlər etdiyini şübhə etməyə “İcraçı”nın əsası varsa, “İcraçı” əvvəlcədən xəbərdarlıq etmədən “Sifarişçi”nin şəxsi hesabını bloklamaq və ya silmək hüququna malik olacaq.

**3.2.“İcraçı”nın öhdəlikləri:**

**3.12.1.** Bu müqavilənin 1.2-ci maddəsində bəhs edilən işlərin görülməsini “Sifarişçi” tərəfindən müəyyən edilən bütün şərtlərə uyğunluğunu təmin edir.

**3.12.2.** “Sifarişçi”nin reklam bannerlərinin, videolarının, promo-məqalələrinin və digər reklam xarakterli məhsullarının seçilmiş məcralarda vaxtında və göstərilmiş büdcələrə uyğun yayımlanmasını müqavilənin tələblərindən kənara çıxmamaqla, keyfiyyətlə və vaxtında icra edərək “Sifarişçi”-yə təhvil verir.

**3.12.3.** “Sifarişçi” tərəfindən xidmət haqqının ödənilməsi üçün müvafiq ödəniş sənədlərini ona təsdiq edir.

**3.12.4.** “İcraçı” xidmətlərin göstərilməsinin Sifarişə və ya bu Müqavilənin şərtlərinə uyğun olaraq davam etdirilməsinin gözlənilən nəticəni verməyəcəyini bildiyi anda bu barədə “Sifarişçi”ni dərhal məlumatlandırır. Bu halda Tərəflər Sifarişə və ya bu Müqaviləyə zəruri dəyişikliklər edilməsini razılaşdıra bilər.

## 4. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

4.1. Bir tərəf təqsirli olaraq digər tərəfə vurduğu zərərə və bu müqavilə üzrə üzərinə götürdükləri öhdəlikləri tam və ya lazımınca yerinə yetirilməməsinə görə digər tərəfə dəymiş zərərə görə tam məsuliyyət daşıyır.
4.2. "İcraçı" bu müqavilənin xidmətinə uyğun göstərməli olduğu xidməti üzrsüz olaraq gecikdirdiyi hər gün üçün gecikdirilmiş xidmətin dəyərinin 0,5% (sıfır tam onda beş faizi) miqdarında "Sifarişçi"-yə cərimə ödəyir.
4.3. "Sifarişçi"-bu müqavilə üzrə etməli oldugu ödənişləri üzrsüz olaraq gecikdirdiyi hər gün üçün müqavilə məbləğinin 0,5 % (sıfır tam onda beş faizi) miqdarında "İcraçı"-ya cərimə ödəyir.
4.4. "Sifarişçi" zəmanət verir ki, (i) o, sağ və ya ölmüş şəxslərin, əşyaların ad və/və ya portretləri, şəkilləri, (ii) ticarət və xidmət markaları, müəlliflik, əmlak hüquqları və digər şəxsi materialları və (iii) təqdim etdiyi və ya onun adından təqdim və dərc edilən reklamdakı ifadələri istifadə etməyə tam səlahiyyəti var və Reklamın/Məzmunun tərkibində yalan, üçüncü şəxslərin hüquq pozuntuları və digər qanuna zidd olan məlumat yoxdur.
4.5. Tərəflərin hər hansı biri bu müqavilə üzrə ödəməli olduğu cəriməni və ya müvafiq zərərin əvəzinin digər tərəfin yazılı məlumatı aldığı gündən etibarən 20 (iyirmi) iş günü ərzində ödəməlidir.

## 5. FORS-MAJOR

5.1. Tərəflər, fors-major hadisələrə görə müqavilənin şərtlərinə uyğun olaraq göstərilmiş vaxta öz öhdəliklərini tam və ya lazımınca yerinə yetirə bilmədikdə, həmin öhdəliyin vəzifəsindən, bununla bağlı məsuliyyətdən müvafiq nisbətdə azad edilir.
*Qeyd:* Bu maddə "Fors-major" terminin işlədilməsi təbii fəlakətlər, epidemiya, partlayışlar,nyanğınlar, zəlzələ, qasırğa, sunami, tufan, müharibə, vətəndaş müharibəsi, xarici dövlətlər tərəfindən hərbi müdahilə, inqilablar, vətandaş iğtişaşları və s. analoji səbəblər, hökümətin, bələdiyyənin və digər səlahiyyətli orqanların qanuni sərəncamları, xarici internet-saytların və reklam xidmətlərinin gözlənilmədən fəaliyyətini dayandırması, "Icraçı"-nın həll etməsi mümkün olmayan texniki nasazlıqlar, həmçinin də ölkənin ərazisindən kənar gözlənilməz və həlli ölkə tərəfindən mümkün ola bilən səbəbləri özündə cəmləşdirir.
5.2. Bir tərəf bu müqavilə üzrə öhdəliyin icrasını gecikdirən fors-major səbəbinin başlanması və bitməsi barədə digər tərəfi dərhal e-mail yaxud qeydə alınmış internet-yazışması ilə məlumatlandırmalıdır.
5.3. Fors-major səbəblərinin başlanması və bitməsi məlumatı üzrsüz səbəbdən gecikdirilirsə, qarşı tərəf bu məlumatlara istinad etməyə bilər. Əgər fors-major səbəblərdən müqavilə nəzərdə tutulan xidmətin başa çatdırılması vaxtı 10 (on) gündən çox uzanaraq, "Sifarişçi"-"İcraçıya"ya heç bir ziyan ödəməmək şərti ilə müvafiq sifarişçidən tam və yaxud qismən imtina edə bilər.
5.4. Fors-major hallar səlahiyyətli dövlət orqanı tərəfdən yazılı təsdiq edilməli yaxud texniki nasazlıqların olmasını təsdiq edən rəsmi məlumat (məktub, e-mail vasitəsilə bildiriş) təqdim edilməlidir.

## 6. KONFİDENSİAL MƏLUMATLARIN QORUNMASI

6.1. "İcraçı" və "Sifarişçi", bu müqavilənin predmeti və bu müqavilə ilə təmzimlənən münasibətlər arasında, digər tərəfdən ona (və ya onun işçilərinə/nümayəndələrinə) verilən konfidensial məlumat və ya sənədin həmin məlumatlarının müqavilənin qüvvədə olduğu müddət ərzində gizliliyini qoruyur.
6.2. Konfidensial məlumatların hər hansı 3-cü tərəfə açıqlanmasına yalnız qarşı tərəfin yazılı yaxud e-mail yazışma ilə rəsmi razılığı əsasında yol verə bilər.
6.3. Bu Müqavilə üzrə bir Tərəfin ("Açıqlayan Tərəf") digər Tərəfə ("Qəbul edən Tərəf") açıqladığı aşağıdakı məlumatlar məxfi məlumat **hesab edilir**:

a) Açıqlayan Tərəfin "məxfi" işarələdiyi istənilən məlumat;
b) Açıqlayan Tərəfin açıqlama anında məlumatın məxfi olmasını şifahi olaraq bildirdiyi istənilən məlumat, o şərtlə ki, Açıqlayan Tərəf bu cür məxfilik bildirişini 1 (bir) iş günü ərzində yazılı olaraq təsdiq etsin; və
c) "məxfi" olaraq işarələnməsindən asılı olmayaraq proqram təminatının komponentlərinin texniki spesifikasiyaları, obyekt və mənbə kodları, təhlükəsizliyə dair audit rəyləri, Qəbul edən Tərəfin kommersiya sirri və ya digər məxfi məlumat olaraq qəbul etməsi ağlabatan qaydada gözlənilən istənilən ictimaiyyətə açıq olmayan məlumat da daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq açıqlanması sahibinə maliyyə zərəri vura bilən digər məlumatlar.

6.4. Aşağıdakı məlumatlar məxfi məlumat **hesab edilmir**:

a) Açıqlama anında Qəbul edən Tərəfin qanuni sahibliyində olan məlumatlar;
b) Məxfi məlumatdan istifadə etmədən və ya məxfi məlumata istinad etmədən Qəbul edən Tərəfin müstəqil olaraq formalaşdırdığı məlumat;
c) Açıqlama anından əvvəl və ya sonra Qəbul edən Tərəfin qeyri-qanuni hərəkət və ya hərəkətsizliyindən asılı olmadan ictimaiyyətə açıq olan məlumat;
d) Açıqlayan Tərəfin yazılı razılığı ilə ictimaiyyətə açıqlanan məlumat.

6.5. Qəbul edən Tərəf məxfi məlumatdan bu Müqavilə üzrə öhdəliklərinin icrası məqsədləri ("Məqsəd") istisna olmaqla, digər məqsədlər üçün istifadə etməməlidir.

6.6. Qəbul edən Tərəf məxfi məlumatları yalnız məqsəd üçün bu cür məlumatlara giriş etməsi zəruri olan və bu bənddə müəyyən edilən aşağı olmayan səviyyədə məxfilik öhdəlikləri daşıyan işçilərinə açıqlaya bilər.

6.7. Qəbul edən Tərəf Açıqlayan Tərəfin qabaqcadan verilmiş yazılığı razılığı olmadan məxfi məlumatı bu bənddə müəyyən ediləndən aşağı olmayan səviyyədə məxfilik öhdəlikləri daşıyan auditorlar, hüquqşünaslar və digər konsultantlar istisna olmaqla, hər hansı üçüncü şəxslərə açıqlaya bilməz.

6.8. Əvvəlki müddəaların ümumiliyinə xələl gətirmədən qeyd edilir ki, Qəbul edən Tərəf məxfi məlumatı özünün oxşar xarakterli və əhəmiyyətli məxfi məlumatlarını qoruduğu səviyyədə qorumaq öhdəliyi götürür.

6.9. Qəbul edən Tərəf məxfi məlumatın sui-istifadə və ya hər hansı qeyri-qanuni istifadəsini bildikdə və ya buna dair əsaslı şübhəsi olduğu təqdirdə bu barədə dərhal Açıqlayan Tərəfi məlumatlandırmalıdır.

6.10. Qəbul edən Tərəf qanunvericiliklə tələb olunduğu hallarda və ya qanuni əsası olan səlahiyyətli dövlət orqanının tələbi əsasında məxfi məlumatı açıqlaya bilər. Qəbul edən Tərəf bu cür açıqlamanı Açıqlayan Tərəfi dərhal məlumatlandırdıqdan sonra həyata keçirməlidir.

6.11. Bu bənddə nəzərdə tutulan öhdəliklər bu Müqavilənin xitamından sonra da qüvvədə qalır.

6.12. Bu Müqavilənin hər hansı səbəbdən xitamından sonra Qəbul edən Tərəf məxfi məlumatların bütün nüsxələrini Açıqlayan Tərəfə qaytarmalı və ya həmin nüsxələri məhv edərək bunu yazılı olaraq təsdiq etməlidir.

6.13. Bu Müqavilə üzrə Açıqlayan Tərəfin məxfi məlumatları Qəbul edən Tərəfə açıqlaması heç bir halda həmin məxfi məlumatlar üzərində mülkiyyət hüququnun Qəbul edən Tərəfə verilməsi demək deyildir. Açıqlayan Tərəf açıqladığı bütün məxfi məlumatlar üzərində mülkiyyət hüququnu özündə saxlayır.

## 7. XÜSUSİ ŞƏRTLƏR

7.1. Bu müqaviləyə aşağıdakı hallarda vaxtından əvvəl bir tərəfli qaydada xitam verilə bilər:

a) hər hansı bir tərəfin 15 (on beş) gün əvvəlcədən edilən yazılı müraciəti əsasında;
b) qanunvericilikdə müəyyən edilən digər hallarda müvafiq imperativ normalara yaxud qarşılıqlı razılıq ilə müəyyən edilən qaydalara əsasən.

7.2. Bu müqavilənin şərtlərinə əlavələr və dəyişikliklər yalnız tərəflərin yazılı razlığı əsasında həyata keçirilə bilər.

7.3. Bu müqavilə, biri "İcraçı" da, digəri isə "Sifarişçi"–də qalmaq şərti ilə eyni hüquqi qüvvəyə malik olan 2 (iki) nüsxədə Azərbaycan dilində tərtib olunmuşdur.

7.4. Tərəflər arasında bu müqavilə ilə əhatə olunmayan münasibətlər Azərbaycan Respublikasınının qüvvədə olan qanunvericiliyinə əsasən tənzimlənəcək.

## 8. MÜBAHİSƏLƏRİN HƏLLİ

8.1. Bu müqavilənin icrası zamanı meydana çıxan bütün narazılıq və mübahisələr tərəflərin qarşılıqlı razılığı ilə həll edilir.

8.2. Narazılıq və mübahisələrin həlli zamanı beynəlxalq işgüzar standartlar və xaricdə analoji problemlərin həlli yolu kimi qəbul olunmuş presedent qərarlardan istifadəyə üstünlük verilir.

8.3. Qarşılıqlı razılıq əldə edilmədikdə mübahisələr Azərbaycan Respublikasının qanunverciliyinə uyğun məhkəmə qaydasında həll edilir.

## 9. TƏRƏFLƏRİN ÜNVANLARI VƏ BANK REKVİZİTLƏRİ

**«İcraçı»:**

**SMARTBEE  MMC**
**VÖEN:** 1702851971
**Ünvan:** Bakı ş., Əhməd Cavad 15, 3-cü mərtəbə
**Bankın adı:** Bank of Baku ASC Mərkəz filialı
**IBAN:** AZ89JBBK00380300001634854A75
**Bank VÖEN:**1700038881
**Kod:** 507592
**M/h:** AZ27NABZ01350100000000007944
**SWIFT:** JBBKAZ22

**Direktor:**    Fərid Kərimov

______________________

«Sifarişçi»:

**Filankəs Filankəsov**
**İdarə Heyətinin Sədri**
**"XXXXXX" MMC**
**Ünvan:** Bakı ş., Xaqani küç.. 21
**VÖEN:** 9900001901
**Kod:** 505668
**M/h:** AZ80NABZ 01350100000000014944
İBAN:  AZ25BRES00450994400029507201
**S.W.I.F.T:** BRESAZ22

______________________ **Filankəs Filankəsov**